Sevda KƏRİMOVA

# REGİONLARDA SAHİBKARLIĞIN İNKİŞAFINAKİTABXANA - İNFORMASİYA DƏSTƏYİ

*Açar sözlər: region, sahibkarlıq, biznes, informasiya tələbatı, kitabxana-informasiya xidməti, dövlət dəstəyi, iqtisadiyyat, istehsal.*

*Ключевыеслова: регион, предпринимательство, бизнес, информационные потребности, библиотечно - информационная служба, государственная поддержка, экономика, производство.*

*Keywords: region, entrepreneurship, business, information needs, library and information service, state support, economy and manufacturing.*

*Məqalədə müəllif regionlardasahibkarlığın inkişafına kitabxana-informasiya dəstəyinin müasir vəziyyətini şərh etməyə çalışmışdır.Burada həmçinin "Sahibkarlığa dövlət dəstəyi" çərçivəsində kitabxanaların rolu və əhəmiyyəti də qeyd edilmişdir.*

1. Giriş.Sahibkarlığa informasiya dəstəyi –ölkədaxili kiçik biznesin inkişafının ən mühüm elementlərindən biridir. Bu prosesdə digərləri ilə sıx əməkdaşlıq edən və hər biriyalnız özünəməxsus funksiyaları yerinə yetirən bir sıra strukturlar iştirak edir. Regionlarda mövcud olan kitabxanalar hələ də lazımi informasiyanın əldə edilməsi, informasiya axtarışının tamlığı və dəqiqliyini təmin edə bilən yeganə açıq informasiya mərkəzləridir.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu böyük uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasət nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoymuş, bütün sahələrdə müsbət göstəricilərə imza atmışdır. Artıq dünya birliyində öz layiqli yerini tutan, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmək hədəfinə doğru böyük inamla irəliləyir, ötən hər ay, hər il bütün sahələrdə əldə olunan uğurlarla tarixə düşür. Bəli, bu gün reallaşdırılan mühüm layihələr nəticəsində ölkəmizdə makro-iqtisadi sabitlik qorunub saxlanılır, iqtisadiyyatın şaxələnməsi uğurla təmin olunur, özəl bölmənin, sahibkarlığınınkişafı üçün daha əlverişli biznes və investisiya mühiti formalaşdırılır.

Dövlət başçısının "Ölkə iqtisadiyyatının gələcək inkişafı sahibkarlığın inkişafından bilavasitə asılıdır" prinsipinə uyğun olaraq, Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Prezident İlham Əliyevin sədrliyi ilə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda cənab İlham Əliyev respublikamızda özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafına bundan sonra da xüsusi diqqət göstəriləcəyini bir daha bildirmişdir. Bu da



təsadüfi deyil. Çünki son illər Azərbaycanın dinamik inkişafında iqtisadiyyatın əsas hərəkətverici qüvvəsi olan özəl sektorun, kiçik və orta sahibkarlığın rolu böyükdür. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, son illərdə investisiyaların böyük əksəriyyəti özəl sektorlar tərəfindən qoyulan daxili investisiyalardır. Bu, həm də onu göstərir ki, Azərbaycan dövlətinin gücü artmış, özəl sektor, sahibkarlıqölkəmizdə gedən uğurlu proseslərdən bəhrələnmişdir. Cənab Prezident bununla bağlı demişdir ki, biz bundan sonra da dövlət investisiya proqramlarını icra edəcəyik. Hər il dövlət büdcəsindən böyük məbləğdə vəsait ayrılır. Amma mən çox istərdim ki, özəl sektor daha da böyük həcmdə investisiyalar qoysun, həm öz imkanlarını genişləndirsin, eyni zamanda, ölkənin inkişafı üçün dəbunun böyük əhəmiyyəti vardır.

2.Məsələnin qoyuluşu. İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu (SKMF) "Regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi" mövzusunda müxtəlif regionlar üzrə tədbirlər keçirmişdir. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar Respublikamızın regionlarında yerləşən kitabxanalar da öz resurslarını, imkanlarını və yaradıcı potensiallarını cəlb etmişlər.

Bu proqram çərçivəsində Rayon Mərkəzi Kitabxanaları regionlarda sahibkarlara və kiçik biznesin inkişafınakitabxana - informasiya dəstəyinin perspektivlərini müəyyən etmiş, sahibkarlığın informasiya təminatı problemini həll etmək üçün çalışmışlar.

Regionlarda nəzərdən keçirilən orta və kiçik biznes nümayəndələrinə kitabxana - informasiya dəstəyinin vəziyyətini təhlil etmək məqsədilə Ağsu rayon Mərkəzi kitabxanası, Neftçala rayon Mərkəzi kitabxanası və İsmayıllı rayon Mərkəzi kitabxanasıüzrə tədqiqatlar aparılmışdır. Ağsu rayon Mərkəzi kitabxanasında keçirilən sorğu nəticəsində əldə edilən məlumatlara əsasən kitabxanasının fondu 226294 nüsxə təşkil edir. Bunların 1082 nüsxəsi iqtisadiyyat, biznes, sahibkarlıq, menecment, əmtəəşünaslıq və iqtisadiyyatın digər sahələri üzrə ədəbiyyatlardır. 2015-ci il ərzində kitabxanaya iqtisadiyyat və biznes sahəsi üzrə 14 adda kitab daxil olmuşdur. Qeyd etmək lazımdır ki, rayonda Az-Qranat Səhmdar Cəmiyyəti, şərab emalı zavodu, çörək zavodu, qum karxanası, Dəmir Bank, Rabitə Bank, Ləman Bank, balıqçılıq vətəgələri, fermer təsərrüfatları kimi sahibkarlıq obyektləri fəaliyyət göstərir. Ötən il kitabxanaya kənd təsərrüfatı fermerləri, Az-Qranat Səhmdar Cəmiyyətinin mütəxəssisləri, maliyyə və bank işçilərindən ibarət 17307 oxucu müraciət etmişdir. Hal-hazırda kitabxanada qeyd edilən sahələr üzrə oxucular 105 qrupa ayrılır və onlar öz ixtisas sahələrinə aid yeniliklərlə bağlı sorğular üzrə kitabxanadan istifadə edirlər. Oxuculara abonoment, məlumatbülletenləri və internet məlumat bazaları vasitəsilə xidmət göstərilir. Kitabxana Azərbaycan Respublikası regionlarının sosial-iqsadi inkişafı Dövlət Proqramlarına dəstək məqsədilə sahibkarları Hüquq İnformasiya Mərkəzivə internet məlumatları ilə

(biznesinfo.az, iqtisadiyyat.com, marketinq.az, maliyyə.gov.az, bank.az və s.) təmin edir. Lakin təəssüflə qeyd etmək lazımdır ki, kitabxananın resursları, o cümlədən, iqtisadiyyat, biznes, sahibkarlıq, menecment, əmtəəşunaslıq və iqtisadiyyatın digər sahələri üzrə ədəbiyyatlar elektron kitabxanaya daxil edilməmişdir.

Neftçala rayon Mərkəzi kitabxanasında aparılan sorğunun nəticələrinə əsasən kitabxananın244079 nüsxə ümumi kitab fondu olmaqla, 9 adda qəzet vəl adda jurnala abunədir. Neftçala rayon MKS – nin fondundaiqtisadiyyat, biznes, sahibkarlıq, menecment, əmtəəşunaslıqvə iqsadiyyatın digər sahələri üzrə cəmi 1392 kitab vardır. MKS – nin 24248 nəfər oxucusu vardır ki, onların 567 – si balıqçılıq, quşçuluq, heyvandarlıq, əkinçilik, şüşə sexi və s. sahələr üzrə sahibkarlıq və biznes fəaliyyəti ilə məşğul olan istifadəçilərdir.Oxucular kitabxanaya ay ərzində 7-8, il ərzində 150 dəfədən artıq olmaqla, əsasən, "Sahibkarlığın inkişafına kömək edən amillər", "Sahibkarlıq və biznes mühitində inkişaf mexanizimi", "Nərə balığının yetişdirilməsi üsulları", "Gön-dəri emalı" və s. kimi sorğularla müraciət edirlər. Bu sorğulara abonoment, kitab sərgiləri, məlumatbülletenləri və 6 elektron baza vasitəsilə internet xidmətləri, həmçinin biznesinfo.az, iqtisadiyyat.com, marketinq.az, maliyye.gov.az, bank.az kimi saytların məlumatları əsasındavirtual xidmətlər göstərilir. Qeyd etmək lazımdır ki, Ağsu rayon Mərkəzi kitabxanasından fərqli olaraq, Neftçala rayon Mərkəzi kitabxanasında iqtisadiyyatın müxtəlif sahələrinə dair 60 adda kitab elektron kitabxanaya daxil edilmişdir.

İsmayıllı rayon Mərkəzi kitabxanasının 390740 nüsxə ümumi kitab fondu vardır. MKS-nin fondunda iqtisadiyyat, biznes, sahibkarlıq, menecment, əmtəəşunaslıq və iqtisadiyyatın digər sahələri üzrə cəmi 6445 adda kitab mövcuddur. 2015-ci ildə 170 nüsxə yeni kitab daxil olmuşdur.27596 nəfər oxucunun 265 nəfəri bank işçiləri və kənd təsərrüfatı üzrə sahibkarlıqla məşğul olan istifadəçilər olmuşdur. Oxucular kitabxanaya regionda sahibkarlığın inkişafı, biznes və menecment, bank işi, heyvandarlıq və bitkiçiliyin inkişafı barəsində sorğularla müraciətlər etmişlər. Belə sorğuların sayı ay ərzində adətən 15 – 20, il ərzində isə 190 – 210 olur. Rayon ərazisində10 adda özəl bank filialları, quşçuluq və digər kiçik sahibkarlıqla məşğul olan obyektlər vardır və bu obyektlərin nümayəndələri əsasən peşələrinə aid ədəbiyyatlarla təmin olunurlar. Kitabxanada elektron kitabxana yaradılmadığı üçün oxuculara abonoment, internet xidmətləri, fondda olan ədəbiyyatlar vasitəsilə, həmçinin biznesinfo.az., iqtisadiyyat.com., marketinq.az, maliyye.gov.az, bank.az, azlibnet.az, prezident.az, anl.az, preslib.az kimi saytların məlumatları əsasındavirtual xidmət göstərilir.

Kiçik sahibkarlıq müəssisələrinin rəhbərləri əsasən orta ixtisas təhsili olan insanlardır. Ümumi orta təhsilə malik olanlar müxtəlif yaş qruplarına aid insanlardır ki, onların əsas fəaliyyət növü ticarətdir.



Bunu da qeyd etmək lazımdır ki, iş qabiliyyəti daha yüksək olan yaş qrupu 31 - 50 yaş arasında olanlardır ki, bu da sahibkarlıqla məşğul olan və əksəriyyəti kişilərdən ibarət olan insanların 70 - 71 %-ni təşkil edir.

Sahibkarlıq fəaliyyətinə qədər bir çox müəssisə rəhbərlərinin sənaye, xidmət və ticarət sahələrində çalışması məlum olmuşdur. Yaşı 30 – adək olan sahibkarlar qrupunu isə əvvəllər heç yerdə işləməyən gənc sahibkarlar təşkil edir. Sahibkarların 70-75 %-i çoxillik işgüzar təcrübəyə malik olan 30 - 50 yaş arası insanlardır. Onların yarıdan çoxu ticarət, təxminən 28 – 29%-i isə xidmət sferasının nümayəndələridir. Yalnız 20 – 22 %-i istehsal fəaliyyəti ilə məşğuldur.

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, sahibkarlıq müəssisələrinin çox hissəsi öz fəaliyyətini həyata keçirmək üçün informasiyanı vergi orqanlarından, təxminən 20 – 23 % - i kitabxanadan, 30 – 31 % - i isə KİV – dən əldə edir. Kitabxanalardan istifadə edən oxucular əsasən kataloq – kartoteka sistemi vasitəsilə kitabxana fondu (kitab və dövri nəşrlər) və müasir texnologiyalardan istifadə etməklə internet vasitəsilə onlara lazım olan məlumatları əldə edirlər.

Sahibkarların daha çox hissəsi fərdi məlumatlandırmaya üstünlük versə də, müəyyən qismi sərgilərdən istifadəni, bir qismi isə işgüzar görüşlərdə iştirak etməyi daha məqsədəuyğun hesab edir.

Qeyd etmək lazımdır ki, regionlarda sahibkarlıq fəaliyyəti ilə məşğul olan insanlar tərəfindən ən fəal istifadə olunan informasiya mənbəyi qəzetlərdir. Regional dövri nəşrlərdə sahibkarlıq fəaliyyətinin problemləri üzrə nəşr olunan materialların təhlili göstərir ki, regional mətbuatda və yerli radio kanallarında sahibkarlıq fəaliyyəti və işgüzar maraqların təqdim olunması problemi hələ də aktual olaraq qalmaqdadır. Hələ də regional KİV – lər yerli məhsul istehsalçılarına və sahibkarlıq strukturlarına qeyri-qənaətbəxş dəstək göstərir. Sahibkarlıq strukturlarının fəaliyyətinə dair davamlı və hərtərəfli məlumatlar biznesin inkişafını, nikbin işgüzar insan obrazının formalaşmasını, kiçik sahibkarlığın nüfuzunun artmasını, regional qanunverici və icraedici oqanların kiçik sahibkarlığın inkişafına dəstəyinin ictimaiyyətə çatdırılmasını təmin edə bilər (1, 55).

Rayon mərkəzlərində yaşayan sahibkarların bir hissəsi interneti lazım olan məlumatların əldə edilməsi vasitəsi kimi istifadə edir ki, onların çox hissəsi internetdən evdə və iş yerində, bir hissəsi isə kitabxanalarda istifadə edir. Daha gənc yaşlarda olan sahibkarlar interneti əsas məlumat mənbəyi hesab edərək gələcəyin yeni texnologiyalara məxsus olduğunu bildirmişdir. Orta yaş qrupuna məxsus olan sahibkarlar isə həm yeni texnologiyalar, həm də ənənəvi formanın bərabərlik təşkil etdiyini vurğulamışdır. Göründüyü kimi, bu istifadəçilər informasiya texnologiyalarına kifayət qədər yaxın olmayanlardır ki, yeni texnologiyaları lazımi qədər dəyərləndirmir və buna görə də onlardan aktiv istifadə etmirlər.

Burada yeni texnologiyaya sahib olan, lakin, biznesin elektron həyata keçirilməsini (elektron poçt, internet vasitəsilə məlumat axtarışı, internet resursları ilə işləmək bacarığı, məlumat bazalarından istifadə, internet vasitəsilə alqı – satqı, şəxsi sayt yaratmaq və s.) kifayət qədər reklam etməyən kitabxanaların da zəif fəaliyyəti nəzərə çarpır (1, 56).

Sahibkarlar üçün zəruri olan informasiyalar içərisində birinci yer vergilər haqqında olan məlumatlara məxsusdur. İkinci yeri hakimiyyət orqanlarına aid sənədlər, yəni rəsmi məlumatlar tutur. Üçüncü yer normativ – hüquqi sənədlərə aiddir. Daha sonra kiçik sahibkarlıq nümayəndələrini qiymətlər barəsində və kommersiya məlumatları, kredit və investisiyalar haqqında olan informasiyalar maraqlandırır. Yoxlamaların aparılmasına dair məlumatlar da eyni dərəcədə maraq kəsb edirlər.

Digər informasiyalar haqqında tələbatlar müxtəlifdir. İstehsal fəaliyyəti ilə məşğul olan ali və orta texniki ixtisas təhsilinə malik sahibkarlar üçün ilk yerlərdən birini avadanlıq və texnologiyalar barəsində məlumatlar tutur ki, digərləri üçün bu məlumatlar o qədər də əhəmiyyət kəsb etmir. Bundan başqa regionlarda aparılan sorğunun nəticələrindən də göründüyü kimi, müxtəlif rayonlarda fəaliyyət göstərən sahibkarlardan ticarətlə məşğul olanlar qiymətlər haqqında, digərləri isə kommersiya məlumatlarına üstünlük verirlər. Sahibkarların çox az hissəsi təhsillə bağlı informasiyalar üçün müraciət edirlər (1, 57).

Məsələnin həlli yolları:Göründüyü kimi, kitabxanalar sahibkarlığın informasiya təminatının planlaşdırılması və həyata keçirilməsində yerləşdiyi rayonun spesifik xüsusiyyətlərini mütləq nəzərə almalıdırlar. Çünki, sahibkarları yerli cəmiyyətin üzvü kimi, regional əhəmiyyətli məlumatlar maraqlandırır. Burada yerli hakimiyyət orqanlarının məlumatlarının toplanması, işlənməsi və təqdim edilməsi ilə məşğul olan kitabxanalar üçün böyük perspektivlər və iş bolluğu vardır (2). Bəzi kitabxanalar artıq bu istiqamətdə müsbət iş təcrübəsi qazanmışlar. İqtisadiyyatın və istehsal sahələrinin daha çox inkişaf etdiyi bəzi rayonlarda yerləşən kitabxanaların işçiləri müəssisə və şirkət rəhbərliyinə fərdi olaraq məlumat xidmətinin göstərilməsi ilə də məşğul olurlar.

Nəzərdən keçirilən məsələlərin həlli üçün bəzi təkliflər vermək olar:

Ərazidə fəaliyyət göstərən hər bir sahibkarı kiçik sahibkarlığa dəstək proqramı ilə tanış etmək;

İnformasiya resurslarının təqdim edilməsi ilə yanaşı, hüquq, iqtisadiyyat və vergi sahələri üzrə mütəxəssislərin əraziyə gedərək məsləhətlər verməsini təşkil etmək;

Reklam fəaliyyətinin, biznes planların hazırlanmasına kömək etmək;

Regionların əsas informasiya mərkəzləri kimi bütün rayon kitabxanalarına yeni informasiya texnologiyalarını yerləşdirmək yolu ilə informassiyanın əldə edilməni və şəffaflığını təmin etmək;

Kitabxanaların dövri nəşrlər, hüquq və iqtisadiyyata dair ədəbiyyatla komplektləşdirilməsini inkişaf etdirmək.



Nəticə: Bütün bu deyilənləri nəzərə alaraq, belə nəticəyə gəlmək olar ki, sahibkarlar üçün zəruri olan informasiya mühiti hələ yaranmamışdır. Regionlarda sahibkarların informasiya təminatı kiçik biznesin primitiv və aydın görünən qeyri – qənaətbəxş informasiya təminatından qlobal informasiya cəmiyyətinin tərkib hissəsi olan müasir səviyyəyə keçidi həyata keçirməyə başlamışdır.

Ona görə də, burada bütün kateqoriyalı istifadəçilərin informasiya əldə etməsini təmin edən əsas regional informasiya mərkəzləri kimi kitabxanaların rolunu qiymətləndirmək çətindir.

## ƏDƏBİYYAT

1. Протопопова Е.Н.Информационное обеспечение предпринимательской деятельности в малых городах [ Научные и технические библиотеки. – 2004. – № 7. – С.53-58 ]
2. http://www.library.ru/1/kb/articles/article.php?a_uid=157

С.Каримова

## БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОЕ ПОДДЕРШКА ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ В РЕГИОНАХ

### РЕЗЮМЕ

Автор статьи старался исследовать проблему библиотечно-информационного обслуживания потребителей деловой информации в регионах. В статье так же анализирована роль библиотеки, которая является основным учреждением в собрании, сохранении и передачи бизнес информации и участие ее в программе«Государственная поддержка предпринимательства врегионах».

S.Karimova

## LİBRARY - İNFORMATİON SUPPORT OF ENTREPRENEURSHİP İN REGİONS

### SUMMARY

The author tried to investigate the problem of library and information services to consumers of business information in the regions. The articlealso analyzed the role of library, which is the main institution in the collection, preservation and transfer of information business and its participation in the program "State support of entrepreneurship in regions".